Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti: "İctimai və dövlət maraqları"

# Lənkəranda "Novruz mühazirəsi"

## Ənənəvi mühazirənin budəfəki mövzusu "Bakı Dövlət Universiteti-100: tarix və gələcəyin tandemi" oldu

**Cənub bölgəsinin mədəni mərkəzində - Lənkəranda Boz ayın ikinci çərşənbəsini - Od çərşənbəsini qarşılamaq, adət-ənənəmizə rəğmən tonqal qurulmasında iştirak etmək, bu elin ta qədimdən qoruyub saxladığı inanclara şahid olmaq "Novruz mühazirəsi"ni təşkil edən qonaqların da payına düşdü. Bölgənin Lənkəranda yerləşən yeganə ali məktəbinin akt zalı "Bakı Dövlət Universiteti-100: tarix və gələcəyin tandemi" mövzusunda "Novruz mühazirəsi"ni dinləməyə hazır idi.**



Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Lənkəran şəhər İcra Hakimiyyətinin rəhbərliyi, universitetin professor-müəllim heyəti, təhsil ekspertləri, media işçilərinin iştirakı ilə keçirilən tədbirdə Bakı Dövlət Universitetinin tarixi fəaliyyətinə, onun davamçısı Lənkəran Dövlət Universitetinin fəaliyyətinə nəzər salındı.

"Novruz mühazirəsi"nin Lənkəranda təşkil olunmasının təsadüfi olmadığını bildirən xalq artisti Nurəddin Mehdixanlı bu tədbirin 2016-cı ildən ənənəvi olaraq hər il Azərbaycanın ayrı-ayrı bölgələrində keçirildiyini qeyd etdi. Lənkəran Dövlət Universitetini cənub bölgəsində BDU-nun övladı və təmsilçisi adlandıran N.Mehdixanlı təhsilin hər bir millətin həyatında mühüm rol oynadığını vurğuladı: "Bizim öz dilimiz, bayrağımız var. Milli kimliyi sinəsi üstündə gəzdirmək böyük xoşbəxtlikdir. Biz oxuyub təhsil alsaq, millətimizə sahib çıxsaq, beyin savaşında qalib gəlsək - onda güclü olacağıq, onda Qarabağı alacağıq".

**Lənkəran Dövlət Universitetinin rektor vəzifəsini icra edən professor Natiq İbrahimov** qonaqları salamlayaraq belə tədbirlərin tez-tez keçirilməsini arzuladı: "Çox sevinirik ki, "Novruz mühazirəsi"nin ilk tədbiri məhz Lənkəranda keçirilir. Bu cür tədbirlərin çox olmasını arzulayıram".

**Tarix elmləri doktoru, professor Anar İsgəndərov** BDU-nun 100 illiyi ilə bağlı fikir bölüşməyin həyatının ən xoşbəxt anlarından biri olduğunu qeyd etdi: "Bakı Dövlət Universiteti hamınındır. Azərbaycan tarixinin çoxlu maraqlı səhifələri var. Əgər 1990-cı ildən Lənkəranda universitet fəaliyyət göstərirsə, onun ilk xeyir-duasını verən Bakı Dövlət Universitetidir". Hər bir xalqın öz tarixinin olduğunu deyən A.İsgəndərov bildirdi ki, tarixdə bəzən Mesopotamiya, Babilistan kimi dövlətlər qalmasa da, onların yaratdığı elm, tarix, mədəniyyət, universitetlər qalır: "Mən Lənkəranda universitetin yaranması ilə bağlı hadisələrin canlı şahidi olmuşam. O zaman universitet ayrı-ayrı məktəblərdə fəaliyyət göstərirdi. Bu gün isə təhsil ocağının müasir tələblərə cavab verən korpusları var. Bu gün universitet ölkənin istənilən ali məktəbi ilə rəqabət aparacaq səviyyədədir". Tarixçi alim "Novruz mühazirəsi"nə universitetin yaranma dövrlərinə ekskurs edərək davam etdi.

### XALQ CÜMHURİYYƏTİNİN YADİGARI

Azərbaycan Demokratik Cümhuriyyəti parlamentinin 1 sentyabr 1919-cu il tarixli iclasında Bakıda universitetin təsis edilməsi qərarı qəbul edilib və onun nizamnaməsi təsdiq olunub - Avropa və Asiyanın qovşağında yeni bir ali təhsil ocağı yaradılıb. Universitetin ilk rektoru Kazan Universitetinin professoru, məşhur cərrah V.İ.Razumovski idi. Həmin dövrlərdə universitet rəhbərliyinin dəvəti ilə Bakıya öz ixtisasları üzrə mühazirələr oxumaq üçün N.Y.Marr, V.V.Bartold, Şərq Elmlər Akademiyasının akademiki Fuad bəy Köprülüzadə gəlmişdilər. Məşhur həmyerlimiz, Nobel mükafatı laureatı Lev Landau 1922-1924-cü illərdə bu universitetdə təhsil alıb.

İkinci Dünya müharibəsi illərində professor-müəllimlərin müharibəyə getmələri ilə bağlı kəskin çatışmazlıqlara baxmayaraq, universitet ölkədə öz öncül mövqeyini qoruyub saxlaya bilib. Universitet alimlərinin 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının təşkil edilməsində xüsusi xidmətləri olub. Bolşeviklərin və ermənilərin yaratdığı daxili qarışıqlığa və iqtisadi vəziyyətin ağır olmasına baxmayaraq, AXC milli mədəniyyətin, təhsilin, ədəbiyyatın və incəsənətin inkişafına önəm verib, bu ümdə məsələlərə xüsusi qayğı ilə yanaşıb. Bu qayğı ziyalılarımızın uzun illərdən bəri apardığı gərgin mübarizənin həyati təzahürü idi. Azərbaycan Milli Hökuməti yarandığı ilk günlərdən həlli mühüm olan bir sıra iqtisadi və siyasi problemlərlə üzləşə də, xalqın maariflənməsi üçün çox iklərə imza atıb. Bu tədbirlərin içərisində bütün müsəlman Şərqində ilk Avropa tipli ali məktəb kimi fəaliyyətə başlayan, hazırda ölkənin aparıcı ali təhsil müəssisəsi olan Bakı Dövlət Universitetinin yaradılması xüsusi yer tutur. Şərq dünyasına respublika məfkurəsini və demokratik idarə üsulunu gətirən Azərbaycan xalqının və dövlətinin həyata keçirdiyi nəhəng tarixi hadisələrdən biri, şübhəsiz ki, BDU-nun yaradılması olub. Dövrün ağır və mürəkkəb beynəlxalq şərtlərinə, xarici təhdidlərə, kəskin maliyyə və kadr çatışmazlığına baxmayaraq, Milli Hökumət ölkədə mədəniyyətin inkişafına xüsusi diqqət yetirir, ciddi tədbirlər həyata keçirirdi. Bunun da səbəbini Cümhuriyyət xadimlərinin, demək olar ki, hamısının bir nəfər kimi bu taleyüklü işdə maraqlı olması ilə izah etmək olar. "İyirmi üç aylıq fəaliyyətlərinin on ayı ərzində bu dövlət xadimləri gərgin mübahisə və müzakirələrdən sonra həyatlarının bəlkə də ən böyük arzusunu - müstəqil dövlətin müstəqil ali təhsil ocağını - Bakı Dövlət Universitetini yaratmağa nail olmuşdular. Azərbaycan Xalq Cümhuriyyətinin ən böyük yadigarı BDU oldu".

1969-cu ildən sonrakı illər universitet həyatında bilik və elmin yüksək zirvələrinə doğru yüksəliş illəri sayıla bilər. Bu universitetimizin dünya şöhrətli məzunu Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlməsi ilə bağlıdır. Geniş bir tarixi dövrü əhatə edən həmin illərdə yeni müasir ixtisaslar üzrə fakültələr, kafedralar, elmi-tədqiqat laboratoriyaları fəaliyyətə başlayıb. Beləliklə, universitetin gələcək inkişafı üçün möhkəm zəmin yaradılıb.

Azərbaycanda tədris müəssisələrinin flaqmanı olan, zəngin tarixi keçmişə malik universitet hazırda tanınmış elm və təhsil mərkəzidir. Bakı Dövlət Universiteti hər zaman Azərbaycanda mütərəqqi fikrin, milli düşüncənin mərkəzi olub. Burada Azərbaycanın yüzlərlə tanınmış alimi, ziyalısı, görkəmli diplomatı təhsil alıb.

A.İsgəndərov "Novruz məruzəsi"ni Azərbaycan təhsilinin hesabatı kimi dəyərləndirdi: "İlk ali məktəb kimi BDU-nun şöləsi hər yerdə var. Bakı Dövlət Universiteti təkcə elm vermədi, kadrlarını ölkənin hər guşəsinə səpələdi. Elə bir ev yoxdur ki, orada BDU-nun diplomu olmasın. 100 il ərzində BDU-nu 174 min 500 nəfər bitirib. 4200-ə qədər xarici tələbə BDU-nun diplomunu alıb".

A.İsgəndərov çıxışında hər bir xalqın inkişafında təhsil və tərbiyənin mühüm rol oynadığını qeyd etdi: "O xalq xoşbəxtdir ki, ziyalıları, təhsili yerindədir. Bu gün hansı xalqda tərbiyə və təhsil yerindədirsə, onlar irəli gedirlər".

### LDU DA ÖZ YUBİLEY TARİXİNİ QEYD EDƏCƏK

**Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva** BDU-nun yaranma dövründən bu günə qədər təhsilimizə verdiyi töhfədən danışaraq bu sahədə baş verən inkişafı önə çəkdi: "Cəmiyyətimizdə gedən quruculuq işlərini hamımız görürük. Ölkəmizin möhkəmlənməsində hər birimiz bir vətəndaş kimi üzərimizə düşən məsuliyyəti daha dərindən dərk edirik. Çünki müstəqillik bizə ucuz başa gəlməyib. Bilirik ki, müstəqilliyi qazanmaq çətindir, ancaq onu qoruyub saxlamaq daha çətindir. Bizdən əvvəlki nəsillər müxtəlif çətinliklər bahasına müstəqilliyi əldə ediblər. Onlar bizə bu gözəl imkanları yaşamağı bəxş ediblər. Bizə müstəqilliyimizi bundan sonrakı nəsillərə də ötürmək düşür. Bu mənada ən böyük məsuliyyət təhsilin üzərindədir". Nazir müavini bu gün təhsilin bütün sahələrində inkişafın göründüyünü qeyd etdi: "Bu inkişafı təmin edən və dəstəkləyən təbii ki, ölkəmizin başçısı İlham Əliyevə minnətdarlığımızı bildirməyə bilmərik. Təhsilə göstərilən diqqət və qayğı xüsusi önəmi ilə seçilir. Müstəqillik tarixi çox da böyük olmayan bir dövlət üçün qısa müddətdə bu uğurları əldə etmək böyük göstəricidir". M.Vəliyeva təhsilverənlərin keyfiyyəti və bacarıqları, peşəkar inkişafı baxımından təhsil sahəsində islahatların aparılmasına diqqət çəkdi: "Müəllimlərin çoxu üç il ərzində ixtisasartırma kurslarından keçiblər. Eyni zamanda, 21-ci əsrin çağırışlarına hazır olması baxımından təhsilin məzmununun yenilənməsi üzərində işləyirik. Şagirdlər nəzəri, fundamental biliklərlə yanaşı, həyati vacib bacarıqlara yiyələnməlidirlər. Bu mənada təhsil işçilərinin müasir metodikaya yiyələnməri çox vacibdir. Ümumi təhsillə ali təhsil arasındakı əlaqəni möhkəmləndirmək üçün bu, yaxşı imkandır". Nazir müavini qeyd etdi ki, bütün bu tədbirlərin həyata keçirilməsində 2017-ci ildən təhsil nazirinin əmrinə əsasən ümumi və ali təhsil müəssisələri arasında əməkdaşlıq müqaviləsi həyata keçirilir. İlkin olaraq bu layihənin tətbiq edilməsinə Lənkərandan start verilib: "Layihənin tətbiqindən bir ilə yaxın müddət keçib. Universitetlə məktəblərin əməkdaşlığı çərçivəsində əldə olunan nəticələri təhlil edərkən bir çox uğurların şahidi oluruq. Bu gün Lənkəran Dövlət Universiteti bölgədə müəllimlərin təcrübəsinin artırılması, yeni pedaqoji texnologiyalara yiyələnməsi istiqamətində demək olar ki, bütün pedaqoji heyət səfərbər edib. Bu gün ucqar dağ kəndlərində çalışan müəllimlərə universitetin ali təhsil kateqoriyalı müəllimlərinin dəstək verməsi təhsilin keyfiyyətinə təbii ki, müsbət təsir etməyə bilməz. Biz universitetin həyata keçirdiyi digər fəaliyyətlərə də nəzər salsaq, görərik ki, qısa müddət ərzində LDU istər beynəlxalq, istərsə də ölkənin biznes strukturları ilə əməkdaşlıq baxımından bir sıra uğurlu layihələrə imza atıb, təhsilin inkişafına, elmi mühitin yaradılmasında mühüm rol oynayıb". Nazir müavini BDU-nun gözəl ənənələrinin tezliklə LDU-ya daşınacağına əminliyini bildirdi: "İnanıram ki, müəllim və tələbə heyəti bu təhsil ocağında gələcəkdə daha böyük uğurların şahidi olacaq. Zaman gələcək, LDU da öz yubiley tarixini qeyd edəcək".

**"Novruz mühazirəsi"nin ideya müəllifi professor Şahlar Əsgərov** çıxışında tədbirin bölgələr üzrə keçirilməsinin məqsədindən danışdı: "Mən istəyirəm ki, bizi təkcə yeyib-içən xalq kimi deyil, həm də düşünən xalq kimi tanısınlar. Bu mühazirələrin mənası da budur".

### GÜN O GÜN OLSUN Kİ...

Qonaqlar Lənkəran Dövlət Universitetinin (LDU) 2 saylı tədris korpusunda yeni avadanlıqlarla təmin olunmuş laboratoriya və auditoriyalar, müəllimlər üçün tikilmiş qonaq evi, turizm tədris-təcrübə bazası ilə tanış olaraq burada 100 ağac əkilmə aksiyasına qoşuldular, universitetin 1 saylı tədris korpusundakı baytarlıq laboratoriyası və sitrus bağı ilə tanış oldular.



Baharın gəlişini müjdələyən, el arasında üskü, addı çərşənbə adlanan Od çərşənbəsi tonqalının qurulmasında iştirak edən qonaqların ürəyindən hamı kimi bir arzu keçdi: Novruz bayramı hər evə, hər ocağa istilik, bol-bol ruzi bərəkət, firavanlıq, xoşbəxtlik gətirsin! Gün o gün olsun ki, Novruz tonqalı işğal olunmuş torpaqlarımızda qalansın!

**Təranə Məhərrəmova**
*Lənkəran-Bakı*

**Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.**